***Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) təşkilatçılığı ilə "Azərbaycan multikulturalizmi modelinin bəşəri sülhə töhfəsi" adlı X Beynəlxalq Multikulturalizm Qış Məktəbi layihəsinin iştirakçıları fevralın 15-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.***

# X Beynəlxalq Multikulturalizm Qış Məktəbi başlayıb



Sonra Şəhidlər xiyabanına gələn qonaqlar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarı önünə tər güllər düzüb, "Əbədi məşəl" abidəsini ziyarət ediblər.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən layihə iştirakçılarına Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

BBMM-nin icraçı direktoru Rəvan Həsənov jurnalistlərə müsahibəsində bildirib ki, mərkəz yarandığı gündən Prezident İlham Əliyevin qarşıya hədəf kimi qoyduğu Azərbaycan multikulturalizminin dünyada tanıdılması, beynəlxalq arenada təbliği və təşviqi ilə bağlı əhəmiyyətli layihələr reallaşdırır. BBMM-nin önəmli layihələrindən biri də artıq ənənəyə çevrilən, mütəmadi olaraq ildə iki dəfə təşkil edilən beynəlxalq multikulturalizm qış və yay məktəbləridir. 2019-cu ilin payız semestrində "Azərbaycan multikulturalizmi" və "Multikulturalizmə giriş" fənlərinin tədris olunduğu xarici və yerli universitetlərdə təhsil alan tələbələrin qatılacağı X Beynəlxalq Multikulturalizm Qış Məktəbi fevralın 14-dən 22-dək Bakı şəhəri ilə yanaşı, Quba, Qusar və Xaçmaz rayonlarında fəaliyyət göstərəcək.

O bildirib ki, məktəbin tədris-metodiki və praktiki işinin əsasını azərbaycanlı alim və mütəxəssislərin mühazirələri təşkil edir. Mühazirəçilərin tələbə auditoriyası ilə interaktiv qarşılıqlı əlaqə üslubu məktəb iştirakçılarına imkan verəcək ki, milli və dini azlıqların həyatının hikməti ilə tanış olsunlar, multikulturalizmin Azərbaycan modelinin nəzəri və praktiki tərəflərini qavrasınlar. Vurğulanıb ki, məktəbin diqqət mərkəzində müasirlik, miqrasiya ilə mübarizə, multikulturalizmin müxtəlif modellərinin populyarlaşdırılması, etno-dini müxtəliflik konteksti daxilində sabitləşdirici mexanizmlərin tənzimlənməsi və s. kimi aktual problemlər olacaq.

Qeyd edək ki, Beynəlxalq Multikulturalizm Yay və Qış məktəbləri layihəsi BBMM-nin "Azərbaycan multikulturalizmi fənninin xaricdə və ölkə universitetlərində tədrisi" layihəsinin məntiqi davamıdır. Tədris layihəsi çərçivəsində hazırda dünyanın 21, Azərbaycanın isə 38 nüfuzlu ali təhsil ocağında Azərbaycan multikulturalizmini öyrənən tələbələr üçün təşkil olunan qış və yay məktəblərinin məqsədi həmin gənclərin nəzəri şəkildə öyrəndiklərini multikultural və tolerant dəyərlərin qorunub yaşandığı ölkəmizdə öz gözləri ilə görüb şahid olmasına şərait yaratmaqdır.

Qış məktəbi müddətində iştirakçıların BBMM-nin Himayəçilər Şurasının sədri, akademik Kamal Abdullayev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə ilə görüşləri planlaşdırılır. Tələbələrin Qobustana, Atəşgaha, İçərişəhərə, "Şahdağ" Qış-Yay Turizm Kompleksinə, Xaçmaz Tarix Diyarşünaslıq Muzeyinə, Quba Soyqırımı Memorial Kompleksinə səfərləri və Qubada dağ yəhudilərinin kompakt yaşadığı Qırmızı qəsəbədə yerli əhali ilə görüşləri, məscid, kilsə və sinaqoqları ziyarəti də nəzərdə tutulub.

Xalq qəzeti 2020.- 18 fevral.- S.9.